*Mədətov Mansur Akif oğlu,*
*iqtisad üzrə fəlsəfə doktoru,*
*Bakı Biznes Universiteti,*
*Email: madatmansur@yandex.ru,*

## AÇIQ BÜDCƏ İNDEKSİNİN TƏTBİQİ ŞƏFFAFLIĞIN TƏMİNATI KİMİ

Açıq Büdcə İndeksi (Open Budget Index - OBI) xüsusi sorğu vasitəsilə ölkələrin büdcə prosesinin şəffaflığını ümumi şəkildə ölçməyə və digərləri ilə müqayisə etməyə imkan verən indeksdir. Bu indeks Beynəlxalq Büdcə Tərəfdaşlığı (International Budget Partnership) təşkilatı (ABŞ) tərəfindən hazırlanır.

Açıq Büdcə İndeksi - Açıq Büdcə Sorğusundakı ictimaiyyətin məlumatı əldə etmə imkanı ilə bağlı 91 suala verilən cavabların ümumiləşdirilməsindən ibarətdir. Bu, büdcə ili ərzində hökumətlərin buraxdığı 7 əsas büdcə sənədi üzrə məlumatın ictimaiyyət tərəfindən əldə edilə bilməsini əks etdirir. Vətəndaşların büdcə məlumatlarına əlçatanlığı artdıqca indeks üzrə ölkənin göstəricisi də yaxşılaşır. Hesablama Palatasının hər ilin büdcələri üzrə rəylərini saytda açıq şəkildə əks etdirməsi Azərbaycanın göstəricisinin yüksəlməsinə səbəb olmuşdur.

Sorğu vərəqəsinə hökumətlərin öz büdcə və maliyyə idarəçiliyi üzrə hesabatlılığını gücləndirmək üçün qəbul etməli olduqları bir sıra təcrübələri qiymətləndirən daha 31 sual daxildir.

Açıq Büdcə Sorğusu 122 sualdan ibarətdir.

Açıq Büdcə İndeksi cədvəli 5 qrupa bölünərək geniş, əhəmiyyətli, müəyyən, minimal və məhdud və heç məlumat verməyən 100-dək ölkənin göstəricilərini əhatə edir.

Azərbaycanda davamlı olaraq büdcə prosesinin beynəlxalq standartlara uyğun daha da təkmilləşdirilməsi, onun şəffaflığının, ünvanlığının və ictimaiyyətə açıqlığının təmin edilməsi istiqamətində məqsədyönlü işlər həyata keçirilməkdədir:

– büdcə prosesini tənzimləyən qanunvericilik aktlarının daha da təkmilləşdirilməsi və dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması və ictimai iştirakçılıq ilə bağlı qanunvericilik aktlarının qəbul edilməsi;

– müvafiq dövlət proqramlarının və tədbirlərinin ortamüddətli büdcə xərcləri ilə əlaqələndirilməsinin daha da təkmilləşdirilməsi, dövlət büdcəsinin proqramlar əsasında tərtibi prosesinin genişləndirilməsi;

– əhalinin məlumatlandırılması üçün dövlət və icmal büdcələrinin layihələrinin Milli Məclisə təqdim olunmamışdan əvvəl “Dövlət və icmal büdcələrinin layihələrinin təqdimatı”nın hazırlanaraq Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməklə ictimai müzakirəyə çıxarılması;

– növbəti büdcə ili üçün təsdiq olunmuş büdcə üzrə vətəndaşın büdcə bələdçisinin hazırlanaraq Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsi;

– Milli Məclisə təqdim olunmamışdan əvvəl dövlət büdcəsinin icrası ilə bağlı müvafiq Qanun layihəsinin və hesabatın Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilməsi;

– növbəti ilin dövlət büdcəsinin layihəsi ilə birlikdə ortamüddətli dövr üzrə (növbəti il və sonrakı üç il) dövlət büdcəsi göstəricilərinin gəlirlərinin təsnifatının və xərclərin funksional təsnifatının bölmələri səviyyəsində, həmçinin həmin dövr üçün icmal büdcənin göstəricilərinin hazırlanaraq Milli Məclisə təqdim edilməsi;

– dövlət büdcəsində dövlət investisiya xərcləri üçün nəzərdə tutulmuş vəsaitin istiqamətlər (sahələr) üzrə bölgüsünün hazırlanaraq Milli Məclisə təqdim edilməsi;

– dövlət əsaslı vəsait qoyuluşu xərcləri hesabına tikintisi başa çatdırılan obyektlərin fəaliyyətə başlanması ilə bağlı tələb olunan xərclərin ortamüddətli büdcə xərclərində (növbəti il və sonrakı üç il üçün) nəzərə alınması.

Dövlət büdcəsinin rüblük icrasına dair hesabata icmal büdcənin göstəricilərinin daxil edilməsi və bu istiqamətdə görülən digər məqsədyönlü işlər Azərbaycan üzrə Açıq Büdcə İndeksinin yüksəlməsinə zəmin yaradıb.

Büdcə prosesinin təkmilləşdirilməsi və onun bütün mərhələlərində şəffaflığın təmin edilməsi istiqamətində müvafiq işlər davam etdirilir.

Qeyd edək ki, mərkəzi ofisi Amerika Birləşmiş Ştatlarında yerləşən və müstəqil qeyri-kommersiya təşkilatı olan Beynəlxalq Büdcə Əməkdaşlığı 100-dən çox ölkədə büdcə prosesi zamanı hökumətin əsas büdcə sənədlərinin ictimaiyyət üçün əlçatanlığını və bu sənədlərin faydalı və əhatəli ola bilmə səviyyəsini 100 ballıq şkala ilə müəyyənləşdirir.

Yeri gəlmişkən deyək ki, Açıq Büdcə İndeksi "Beynəlxalq Büdcə Tərəfdaşlığı" (İnternational Budget Partnership) adlı nüfuzlu beynəlxalq qeyri-hökumət təşkilatı tərəfindən ekspert sorğusu əsasında tərtib olunan reytinqdir. Təşkilat Açıq Büdcə İndeksinin açıqlanmasına 2006-cı ildən start verib. 2017-ci il üzrə açıqlanan reytinq bu sırada altıncıdır. 2006-cı ilin indeksində Azərbaycan 30 bal almışdısa, 2015-ci ildə 51 bal toplayaraq xeyli irəliləmişdi. Amma 2017-ci ilin indeksinə görə Azərbaycanın mövqeyində ciddi geriləmə olub.

8 əsas büdcə sənədinin ictimaiyyət üçün əlçatanlıq səviyyəsinin qiymətləndirilməsi üzrə aparılan bu sorğunun materialları ilə tanış olanda (Open Budget Survey 2017) reytinqdə Azərbaycanın geriləməsinin əsasən texniki səbəbləri üzə çıxır: 1) ölkəmizdə hökumətin büdcəöncəsi bəyanatı və icra büdcəsinin vəziyyəti üzrə yarımillik icmal hazırlanmır; 2) vətəndaş büdcəsinin internetdə yerləşdirilməsi gecikib; 3) hökumətin büdcə layihəsi minimum (çox az) informasiya ilə dərc olunub (internetdə yerləşdirilib); 4) büdcə ilə bağlı hökumətin internetdə yerləşdirdiyi minimum informasiyanın özü də maşınla oxunan halda olmur; habelə, 5) hökumət və qanunverici orqan büdcə proseslərində ictimai iştirakçılığı təmin etmir; 6) qanunverici orqanın (Milli Məclisin) büdcəyə nəzarəti zəifdir və s.